# Azərbaycan-Tacikistan əlaqələri daha da genişlənir

**"Tacikistanla Azərbaycan arasında münasibətlərin yüksək səviyyəyə çatması həm də Tacikistan Prezidenti Emoməli Rəhmon ilə Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi dostluq əlaqələri ilə bağlıdır. Qarşılıqlı fəaliyyət tarix boyu dost olmuş, birlikdə qurub-yaratmış xalqlarımızı indi daha da yaxınlaşdırıb. Tacikistan Prezidentinin ölkəmizə səfəri çərçivəsində imzalanmış sənədlər dövlətlərarası və xalqlararası münasibətlərin daha da möhkəmlənməsinə zəmin yaradacaq".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Fazil Mustafa deyib. Deputat bildirib ki, Tacikistan bizə həmişə dost-qardaş münasibəti sərgiləyib, Azərbaycanla həm sovetlər dönəmində, həm də müstəqillik əldə etdikdən sonra xüsusi əlaqələri olub: "Nəzərə almaq lazımdır ki, burada iki ölkənin strateji maraqlarının üst-üstə düşməsi mühüm rol oynayır. Hər iki ölkənin İslam Əməkdaşlığı Təşkilatında üzv olması da bu baxımdan əhəmiyyətlidir. Ölkələrimizin islam əməkdaşlığı, ümumiyyətlə, qarşılıqlı dostluq əlaqələri hər iki xalqın inkişafı üçün faydalıdır. Eyni zamanda, iki ölkə arasında hələ 1992-ci il mayın 29-da qurulan diplomatik münasibətlərin inkişaf etməsi də çox önəmlidir".

Deputatın sözlərinə görə, Azərbaycan Mərkəzi Asiya dövlətləri arasında Tacikistanla münasibətlərinə xüsusi əhəmiyyət verir. Bunun nəticəsidir ki, Prezident İlham Əliyev indiyədək Tacikistana 6 dəfə səfərə gedib. Dövlət başçılarının qarşılıqlı səfərlərinin məhsuldarlığı Azərbaycan və tacik xalqları arasında tarixi, mədəni və dini bağlılıqlarla birbaşa əlaqəlidir.

"Ölkələrimizi birləşdirən digər səbəb isə siyasi məsələlərdə daha çox ortaq mövqeyə sahib olmaqdır. İstər Azərbaycan, istərsə də Tacikistan, demək olar ki, bütün platformalarda bir-birilərinə dəstək nümayiş etdirir, konstruktiv mövqe sərgiləyirlər. İkinci Qarabağ savaşında da Tacikistan Azərbaycanın haqq işini dəstəkləyib, həmişə yanımızda olduğunu bəyan edib. Münasibətlərimizin bu səviyyəsi bütün sahələrdə - siyasi-iqtisadi, mədəni və mənəvi məsələlərdə hər iki xalqa fayda gətirir", - deyə müsahibim bildirib.

Fazil Mustafa Tacikistan Prezidenti Emoməli Rəhmonun ölkəmizə səfəri çərçivəsində Azərbaycanla Tacikistan arasında imzalanmış sənədlərin əhəmiyyətindən də söz açıb. Deyib ki, mayın 23-də iki ölkə arasında imzalanmış strateji tərəfdaşlıq Bəyannaməsində qarşılıqlı dəstək ifadə olunub: "Bu Bəyannamə ilə yanaşı, imzalanmış digər 13 sənəd də münasibətlərimizin müqavilə-hüquq bazasını xeyli möhkəmləndirir. Görünən odur ki, iki ölkə liderinin intensivləşən rəsmi səfərləri müsbət nəticə verir və Azərbaycan-tacik xalqlarını daha da doğmalaşdırır".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 25 may, № 109.- S.5.